# Uğurlarımızı saymaqla bitməz

## Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü, partiyanın Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızının www.yap.org.az saytına müsahibəsi

***- Məlahət xanım, Azərbaycan mühüm bir siyasi kampaniya ərəfəsindədir. Qarşıdan parlament seçkiləri gəlir. O da bəllidir ki, Azərbaycan bu seçkilərə dayanıqlı və davamlı ictimai-siyasi sabitliyin fonunda gedir. Seçkiöncəsi dönəmdə ictimai-siyasi subyektlərin fəaliyyətinə yaradılan şəraiti, o cümlədən mövcud demokratik mühiti necə dəyərləndirirsiniz?***

- Öncə mən sizin sualınızın mahiyyətinə uyğun olaraq çox maraqlı bir məlumatı çatdırmaq istəyirəm. Bu yaxınlarda tanınmış bir beynəlxalq təşkilatın apardığı sorğunun nəticəsi olaraq, Bakının adı (sözsüz ki, Azərbaycanın) dünyanın sabitliyinə, təhlükəsizliyinə və əmin-amanlığına görə seçilən 100 şəhər arasında idi. Respondentlər üçün sual belə qoyulmuşdu: dünyanın hansı təhlükəsiz şəhərlərində yaşamaq istərdiz. Respondentlərin qeyd etdiyi cavablarda Bakının adını gördükdə sevinməmək mümkün deyil. Bu, həqiqətdir. Bu həqiqət məhz möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində yaradılmışdır. Bunu həm Azərbaycan vətəndaşları, həm də Azərbaycanın xarici ölkələrdən olan dostları bilir və yüksək dəyərləndirirlər. Əlbəttə belə bir fonda mövcud demokratik mühit də bu dayanıqlı və davamlı ictimai-siyasi sabitliyə uyğun olacaqdır. Bu mənada siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir namizəd üçün çox əlverişli seçkiöncəsi mühit mövcuddur. Bilirsiniz ki, bu dayanıqlı və davamlı ictimai-siyasi mühit təkcə noyabrın 1-də ölkədə keçiriləcək parlament seçkiləri üçün yaradılmamışdır. Bu, dövlətimizin və onun rəhbərinin öz xalqı və vətəndaşı üçün yaratdığı şəraitdir. Məhz bunun nəticəsidir ölkəmizdə artıq neçə illərdir ki, beynəlxalq layihələrin uğurla həyata keçirilməsi ənənəyə çevrilmişdir. Qürur hissi ilə deməliyik ki, Azərbaycan dünyada getdikcə artan ksenofobiyanın, irqi ayrı-seçkiliyin, terrorun, separatizmin, etnik qarşıdurmanın fonunda bir sabitlik adasıdır.

***- Azərbaycan siyasi palitrasının avanqard qüvvəsi olan Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıq işlərini necə qiymətləndirirsiniz?***



- Bilirsiniz, Yeni Azərbaycan Partiyası seçkiyə hazırlığı ölkədə keçiriləcək seçkilər zamanı Seçki Məcəlləsində ayrılmış zaman ərzində qurmur. Siz əgər Yeni Azərbaycan Partiyasının fəaliyyətinə nəzər salsanız görərsiniz ki, bu partiya seçki oldu-olmadı sanki sabah seçkiyə gedəcəkdir və hər zaman seçkidə qələbə qazanmaq vəziyyətindədir. Yeni digər siyasi partiyalardan fərqli olaraq Yeni Azərbaycan Partiyası sanki bir müsəlləh əsgərdir. Bu mənada mən partiyamızın seçki hazırlığını yüksək qiymətləndirirəm.

***- Rəhbərlik etdiyiniz YAP Nəsimi rayon təşkilatı parlament seçkilərinə necə hazırlaşır?***

- Sədri olduğum YAP Nəsimi rayon təşkilatının da, Yeni Azərbaycan Partiyasının bir hissəsi kimi vahid komandada və partiyamızda çox təcrübəli və peşəkar fəalların olduğuna görə seçkilərə hazırlığını qənaətbəxş qiymətləndirmək olar. Mən bir gerçəkliyi də demək istəyirəm: Partiyamızın uğurlarının əsasında xalqımızın ümummilli lideri Heydər Əliyev siyasətinə olan sadiqliyi və möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin həyata keçirdiyi siyasətə inamı, etibarı və dəstəyi dayanır. Bu məntiqlə deyə bilərik ki, milli maraqlara xidmət edən Yeni Azərbaycan Partiyasının qələbəsi şübhəsizdir.

***- Bəlli olduğu kimi, həyata keçirilən daxili və xarici siyasətin fonunda Azərbaycanın beynəlxalq mövqeyi, eləcə də demokratik ölkə imici davamlı olaraq möhkəmlənir. Bu barədə fikirlərinizi bilmək istərdik...***

- Azərbaycanın effektiv daxili və xarici siyasəti demokratik olmaqla yanaşı, suverenlik və ədalət prinsipinə əsaslanır. Sırf bu prinsiplər əsasında daxili və xarici siyasət formalaşır və milli maraqlar təmin olunur. Təbii ki, demokratik ölkə imici xarici siyasətin təməlində dayanır. Qərbə inteqrasiya və demokratik dəyərlərin Azərbaycanın daxili siyasətində tətbiqi effektiv nəticələr verir. Azərbaycan bir çox beynəlxalq təşkilatlarda və demokratik qurumlarda fəal təmsil olunur. Ölkəmizin 2012-2014-cü illər üçün 155 səslə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və bir çox mötəbər beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi bunun bariz nümunəsidir. Digər tərəfdən, Azərbaycan Birləşmiş Millətlər Təşkilatının İnsan İnkişafı İndeksində ilbəil irəliləməkdədir. Nəzərə almaq lazımdır ki, Azərbaycan cəmi 24 ildir ki, müstəqildir, lakin bu qısa müddətdə iqtisadi inkişaf tempi və demokratik inkişafına görə dünyanın ən qabaqcıl ölkələri arasında öz yerini tutmaqdadır və bir neçə əsr ərzində demokratik ölkə imici formalaşdıran dövlətlərlə müqayisədə Azərbaycan bugünkü demokratik ölkə imicini 90-cı illərin çətin dönəmlərindən keçərək əldə etmişdir. Bu səbəbdən cənab Prezident də öz çıxışlarının birində bildirmişdir: "Azərbaycanın bir yolu var, bu da inkişaf, demokratiya yoludur." Azərbaycanda demokratiyanın möhkəmlənməsi və inkişafı naminə dövlət strategiyaları qəbul olunur və müvəffəqiyyətlə həyata keçirilir. Bunun nəticəsi olaraq, əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyinin siyasi iradəsi, bununla əlaqədar həyata keçirilmiş dövlət proqramları, işsizliyin və yoxsulluğun minimuma endirilməsi və BMT-nin Minilliyin İnkişaf Məqsədlərinin uğurla həyata keçirilməsi istiqamətində görülmüş tədbirlərə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Cənub-Cənub" mükafatı ilə təltif olunub.

***- Təəssüflər olsun ki, Azərbaycanın müstəqil siyasətini narahatlıqla qarşılayan bəzi xarici dairələr ölkəmizə qarşı qara piar kampaniyası aparır, təzyiq mexanizmi formalaşdırmağa çalışırlar. Xüsusilə də parlament seçkiləri ərəfəsində bəzi xarici dairələrin ölkəmizə qarşı qərəzli çıxışlarının, bəyanatlarının artmasını nə ilə əlaqələndirirsiniz?***

- Bilirsiniz, əvvəllər düşünürdük ki, Azərbaycan gücləndikcə, beynəlxalq aləmdə mövqeyi artdıqca ölkəmizə qarşı ədalətsiz, qərəzli və bəzi hallarda düşməncəsinə yanaşan qüvvələr geriyə çəkiləcəklər. Amma indi bunun əksi ilə üzləşmişik. Biz ictimaiyyətə də bu məsələləri açıq deməliyik. Əslində, bu sualınıza qismən də olsa bundan əvvəlki suallarınızda cavab verdim. Təkrarən o məqamlara toxunmaq istəməzdim. Ölkəmiz bu gün bir çox hallarda dünyanın inkişaf etmiş böyük dövlətləri ilə yarışlarda, müsabiqələrdə iştirak edir. Ölkəmiz humanitar tədbirlərə, beynəlxalq layihələrə ev sahibliyi edir, qlobal problemlərin müzakirə məkanına çevrilir. Dünyanın tanınmış siyasi liderləri tolerantlığın və multikulturalizmin mərkəzi və beşiyi olan ölkəmizdə gələcəyin ümumi yol xəritəsinin hazırlanması, insanlığın qorunması naminə səylərin birləşdirilməsi üçün bir araya gəlirlər. Bütün bunlar sözsüz ki, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun ilbəil artmasından, möhtərəm Prezidentimizin şəxsi nüfuzundan qaynaqlanır. 2003-cü ildən bugünədək əldə etdiyimiz uğurlar haqqında günlərlə danışa bilərik. Yeni Azərbaycan Partiyasının sonuncu parlament seçkilərindən bu il noyabrda keçiriləcək seçkilərədək olan müddətdəki uğurları saymaqla bitməz. Bizim partiyamız və YAP-ın lideri ancaq öz xalqına və onun milli maraqlarına xidmət edir və bu missiya onun üçün şərəfdir. Azərbaycan öz xarici siyasətini müstəqil şəkildə həyata keçirir. Lakin bu, heç də həmişə digər böyük dövlətlərin milli maraqları ilə üst -üstə düşmür. Beləliklə, sözügedən dövlətlər özlərinin ikili standartlar siyasətlərindən riyakarlıqla Azərbaycanın imicini zədələmək və ölkəmizə təzyiq vasitəsi kimi qətnamə və qərarlardan istifadə edirlər.

Məsələn, AŞPA Dağlıq Qarabağa dair qətnaməsində əvvəl torpaqlarımızın Ermənistan tərəfindən işğalı faktını dəstəkləsə də, I Avropa Oyunları ərəfəsində özünün qəbul etdiyi sənədə düzəliş edərək, bunu Dağlıq Qarabağ münaqişəsi kimi xarakterizə edir. Göründüyü kimi, onlar qəbul etdikləri qərarları təkzib edirlər. Demokratiya carçısı olan belə bir təşkilat necə ola bilər ki, özü qəbul etdiyi qərara düzəliş etsin. Bu addım Avropa Şurasına münaqişələrin nizamlanmasında, xüsusilə bu beynəlxalq təşkilatın fəaliyyətinə olan inamı itirir. AŞPA-nın bu məsələyə münasibətində etiraz doğuran digər məqam isə işğalçı dövlət olan Ermənistana Azərbaycanla eyni səviyyədə münasibət göstərilməsidir. Qara piar kampaniyası və digər təxribat məqsədli addımlar, demokratiyanın dəstəklənməsindən daha çox Azərbaycana öz iradələrini qəbul etdirmək üçün təzyiq vasitəsidir. Bu, həmçinin Azərbaycanın iqtisadi və siyasi inkişafına mane olmaq mahiyyəti daşıyır, çünki Azərbaycan iqtisadi cəhətdən nə qədər inkişaf edərsə, xarici siyasətdə reaktiv dövlətdən, aktiv siyasət yürüdən dövlətə çevriləcək. Halbuki bu, Azərbaycana təzyiq göstərməyə çalışan heç bir böyük güclərin marağına xidmət etmir.

Digər tərəfdən, Azərbaycanda olan dini tolerantlıq, vicdan azadlığı və multikulturalizm digər dövlətlərə, hətta demokratiyanın ən yüksək pilləsində qərarlaşmış sayılan dövlətlərə nümunədir. Bununla bağlı məqalələri dünyanın ən tanınmış qəzetlərindən olan "Vaşinqton Post"da da daha ətraflı görürük.